# Görkəmli oftalmoloq-alimin xatirəsi əziz tutulur

**Bəşər tarixində yüksək istedada malik olan elə şəxsiyyətlər var ki, onların elmə gətirdiyi yeniliklər, gələcək nəsillərə qoyub getdiyi zəngin irsin mahiyyəti illər, qərinələr ötüb keçdikcə daha da böyüyür, keçmişdən gələcəyə gedən yollara işıq və nur saçır. Dünya tibb elminə böyük töhfələr vermiş belə şəxsiyyətlərdən biri də Azərbaycanın görkəmli elm xadimi, böyük oftalmoloq-alim, akademik Zərifə Əliyevadır. Həyatını Azərbaycan tibb elminin inkişafına həsr etmiş Zərifə xanım Əliyevanın həyat və yaradıcılığı ilə yaxından tanış olduqca Ulu Tanrının ona bəxş etdiyi yüksək mənəvi xüsusiyyətlərin, dünya tibb elminin inkişafına verdiyi töhfələrin bir daha şahidi olursan. Zəngin fitri istedada malik olan novator alimin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, bu sahədə qazandığı nailiyyətlər və yaratdığı fundamental əsərlər Azərbaycan hüdudlarını aşaraq dünyanın bir çox ölkələrinin səhiyyə ocaqlarında tətbiq olunur. Onun səhiyyə elminə gətirdiyi yeniliklər haqqında yazılan çoxsaylı məqalə, kitab və əsərlər alim və tibb mütəxəssisləri üçün həyat və mənəviyyat dərsinə, kamillik və müdriklik təcəssümünə çevrilib.**



Akademik Zərifə Əliyeva ömrünü büsbütün tibb elminin inkişafına həsr edərək, dünyanın elm fədailəri salnaməsində özünə əbədi məkan qazanıb. Elə buna görə də dünyanın bir sıra ölkələrində onun abidələri ucaldılıb, adına xiyaban və parklar salınıb. Belə ölkələrdən biri də, Ukraynadır. Artıq 18 ildir Ukraynanın kurort bölgəsi olan İrpen şəhərinin mərkəzi küçələrindən biri Zərifə Əliyevanın adını daşıyır.

2004-cü ildə şəhərin mərkəzində salınan Zərifə Əliyeva adına istirahət parkında mərhum akademikin büstü ucaldılıb. Azərbaycanla Ukrayna arasında sarsılmaz dostluq körpüsünə çevrilən istirahət parkında uşaqlar üçün əyləncə guşəsi təşkil olunub. Yerli sakinlərin asudə vaxtlarının mənalı keçirilməsi üçün hər cür şərait var. Parkda hər il İrpen şəhər meriyasının və Azərbaycan diasporunun təşkilatçılığı ilə musiqi festivalı keçirilir. Bu məkan artıq uzun illərdir Ukraynanın müxtəlif vilayət və şəhərlərində yaşayan soydaşlarımızın ziyarətgahına, görüş yerinə çevrilib. Bura üz tutan hər bir kəsə, sağlığında minlərlə insanın gözünə nur və şəfqət bəxş edən, ümidsizə ümid, sönmüş qəlblərə ruh verən, analıq nəvazişini heç bir kimsədən əsirgəməyən Zərifə Əliyeva işığından, nurundan pay düşür. Bu gözoxşayan park Ukraynada Ana Vətən qədər doğma və əzizdir.

Parkın daimi sakinləri də var. İrpen şəhərində fəaliyyət göstərən Zərifə Əliyeva adına 12 saylı orta məktəbin direktoru Valentina Antonenko asudə vaxtının çoxunu burada keçirir. - "Zərifə Əliyeva dühası mənim üçün Azərbaycanla Ukrayna dostluğunun mənəvi rəmzinə çevrilib. Onun həyat fəlsəfəsini, yaşadığı şərəfli ömür tarixçəsini dönə-dönə oxumuşam. Bütün uğurlarının, əldə etdiyi nailiyyətlərin kökündə təmənnasız, saf və təmiz sevgi dayanır. O, mənim üçün ideal qadın, nəcib və xeyirxah xanım, fitri istedada malik ziyalı alim, mehriban və qayğıkeş ana obrazının təcəssümüdür. O, görkəmli alim olmaqla yanaşı, dünya şöhrətli siyasi xadim, müdrik və dahi şəxsiyyət olan Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, İlham Əliyev kimi cəsarətli, mütərəqqi, xalqına, dövlətinə bütün varlığı ilə bağlı, ən nəhayət, ölkəsini müharibədən qalib çıxarmağı bacaran müzəffər Ali Baş Komandanın anası olub.

Mən qürur duyuram ki, Zərifə Əliyeva kimi görkəmli elm xadiminin adını daşıyan orta məktəbə rəhbərlik edirəm. Bizim məktəb xarici dil təmayüllü məktəbdir. Burada 13 xarici dil tədris olunur ki, onlardan biri də Azərbaycan dilidir. Məktəbimizdə ildə bir neçə dəfə Zərifə Əliyevanın və Heydər Əliyevin həyat və yaradıcılığı ilə bağlı seminarlar təşkil edirik. Tam səmimi etiraf edim ki, Azərbaycan xalqı xoşbəxt və şanslı xalqdır ki, belə dahi insanları olub. Və bu gün də o ənənə uğurla davam edir" - deyə Valentina Antonenko bizi direktoru olduğu məktəbdə fəaliyyət göstərən Zərifə Əliyeva adına muzeylə tanış edir. Muzeydə akademik Zərifə Əliyevanın zəngin həyat və yaradıcılığını, səmərəli elmi fəaliyyətini özündə əks etdirən fotokompozisiya ilə yanaşı, onun elmi əsərləri və kitabları saxlanılır.

Akademik Zərifə Əliyevanın zəngin yaradıcılığı bir daha onu deməyə əsas verir ki, o, oftalmologiya sahəsində bütün lazımi biliklərə, elmi xüsusatlara yiyələnmiş, elmi-tədqiqatları və müalicə prosesini dünya oftalmologiyasında qəbul olunmuş səviyyədə aparmış görkəmli bir alim olub. Onun elmi nailiyyətlərinin kökündə peşəkarlıqla şəxsiyyətin vəhdəti dayanır. Bu baxımdan mərhum akademikin elmi fəaliyyətinə yüksək qiymət verən Ukraynanın Lvov şəhərində də "Zərifə Əliyeva adına Oftalmoloji Mərkəz" fəaliyyət göstərir. 1 saylı Lvov klinik xəstəxanasının nəzdində fəaliyyət göstərən mərkəzdə gözdən əlil uşaqlara, aztəminatlı ailələrə və müharibə veteranlarına pulsuz xidmət göstərilir.



Mərkəzin yaradılması haqda danışan xəstəxananın baş həkimi, Ukraynanın Əməkdar həkimi Cəvahir Cəfərova rəhbərlik etdiyi klinikada akademik "Zərifə Əliyeva adına Oftalmoloji Mərkəz"in yaradılmasının uzun illərdən bəri ən böyük arzusu olduğunu bildirib: "Zərifə Əliyeva kimi tanınmış elm xadiminin adına oftalmoloji mərkəzin yaradılması uzun illərdən bəri ən böyük arzum olub. Bu arzumun gerçəkləşməsinə görə özümü xoşbəxt hesab edirəm. Bu, həmçinin Lvov vilayətində yaşayan gözdən əlil xəstələrə ən böyük hədiyyədir. Çünki, onlar müayinə olunmaq üçün ya Kiyev şəhərinə, ya da Avropaya üz tuturdular. Artıq 3 ildir bu xəstələr "Zərifə Əliyeva adına Oftalmoloji Mərkəz"də ən müasir avadanlıqlarla müayinə və müalicə olunurlar. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, həm bu mərkəzdə öyrənilir, həm də tətbiq olunur. Onun yaratdığı fundamental əsərlər tibb elminin parlaq səhifəsidir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. Bu gün Azərbaycan qadınının xeyirxahlıq, analıq simvoluna çevrilmiş akademik Zərifə Əliyevanın həyat yolu alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandırır".

Artıq 17 ildir Ukraynada yaşayan soydaşlarımız aprel ayının 28-də bir araya gələrək, İrpen şəhərindəki Ana Vətən qədər doğma olan parkda, akademik Zərifə Əliyevanın xatirəsini anır, böyük hörmət və ehtiramlarını bildirirlər.

**Möhsüm QƏDİROĞLU,**
**"Respublika" qəzetinin**
**Ukrayna və Şərqi Avropa**
**ölkələri üzrə xüsusi müxbiri.**

Respublika.- 2021.- 28 aprel.- S.8.